# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **№271/3** **18 dekabr 2015-ci il**

**Auditorlar Palatasının üzvləri tərəfindən etik davranış qaydalarına riayət olunması vəziyyətinə dair illik hesabatın müzakirəsi barədə**

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın 10.2 Etik davranış məsələləri üzrə illik hesabatların hazırlanması (hesabatlarda aparılmış maarifləndirmə işləri, etik davranış qaydalarının pozulması halları və tətbiq edilmiş intizam tənbehi tədbirləri göstərilməklə), Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edilməsi və ictimaiyyətə açıqlanması və 10.4 Dövlət orqanlarının internet saytlarında etik məsələlər üzrə xüsusi bölmənin yaradılması (qeyri-etik davranış barədə elektron şikayət etmə mexanizmi, etik qaydalar, etik hesabatlar və s.) və Palatanın 2015-2017-ci illər üzrə iş planının 1.5 və Palata Şurasının 2015-ci il üzrə iş planının 7-ci "Auditorlar Palatasının üzvləri tərəfindən etik davranış qaydalarına riayət olunması vəziyyəti barədə illik hesabatın hazırlanması" bəndlərinə müvafiq olaraq Auditin hüquqi təminatı və standartlaşdırma idarəsi və Auditorlar Palatasının Şurası yanında Auditorların peşə etikası komitəsi tərəfindən hazırlanmış illik hesabatı müzakirə edərək və Palata üzvləri tərəfindən etik davranış qaydalarının pozulması ilə bağlı daxil olmuş şikayətlərin araşdırılması ilə bağlı Auditin hüquqi təminatı və standartlaşdırma idarəsinin rəisi M.Abbasovun məruzəsini dinləyərək Auditorlar Palatasının Şurası

## QƏRARA ALIR:

1. Auditorlar Palatasının üzvləri tərəfindən etik davranış qaydalarına riayət olunması vəziyyəti barədə illik hesabat nəzərə alınsın (əlavə olunur).
2. Palatanın aidiyyatı struktur bölməsinin (M.Abbasov) və Keyfiyyətə nəzarət Komitəsinin (E.Əliyev) rəhbərlərinə tapşırılsın ki, sərbəst auditorlar və auditor təşkilatları tərəfindən aparılmış auditlərin keyfiyyətinin audit standartlarına uyğunluğu yoxlanılarkən və onların barəsində Palataya daxil olmuş məlumatlar, müraciətlər üzrə araşdırma apararkən etik davranış qaydalarına riayət olunması vəziyyətini daim diqqətdə saxlasınlar.
3. Auditor təşkilatlarının rəhbərlərindən və sərbəst auditorlardan tələb olunsun ki, öz fəaliyyətlərində Peşə etikasının tələblərinə ciddi riayət etsinlər.
4. Azərbaycan Respublikasının Prezidentinin 2012-ci il 5 sentyabr tarixli sərəncamının 3.2. "Fəaliyyət Planlarının icrası üzrə illik iş planlarını təsdiq etsinlər və bu barədə məlumatı Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına təqdim etsinlər" bəndinə uyğun olaraq hesabat hazırlanacaq illik hesabata əlavə edilsin və aidiyyatı qurumlara göndərilməsi (M.Abbasov) təmin olunsun.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**